**UOT 398.1**

# AŞIQ POEZİYASINDA DİNİ-MƏNƏVİ DƏYƏRLƏR

**İSGƏNDƏROV BALAKİŞİ ATAKİŞİ oğlu**
*Sumqayıt Dövlət Universiteti, Folklorşünaslıq ETL, k.e.i.*
femida278@mail.ru

***Açar sözlər:*** *təcnis, irfan, əxlaq, Qurani-Kərim, islam, namus.*

İslam dininin yaranması, təbiidir ki, özü ilə bərabər yeni mənəvi-əxlaqi dəyərlər sisteminin əsasını qoymuşdur. İslam əxlaqından qaynaqlanan dini-mənəvi dəyərlər bu müqəddəs dinə iman gətirənlərin ürəyinə hər zaman əxlaq təmizliyi, iman kamilliyi və əqidə bütövlüyü əta etmişdir. Məhz bu insanların imanı kamilləşdikcə, əxlaqı gözəlləşmiş, zəkası nurlandıqca, irfanı dərinləşmişdir. XVI-XIX əsrlərdə yaşayıb-yaratmış ustad aşıqların qoşma, gəraylı və təcnislərində öz əksini tapmış dini-irfani fikirləri daha çox nəzərə çarpır. Bu mövzu ilə bağlı olaraq Ş.Quliyeva tədqiqatlarının birində yazır: "Aşıq yaradıcılığı xalqın mənəviyyatından qidalanmış, ona görə də xalqın qəlbinə yol tapa bilmişdir. Xalqın islam dininə inamı, Qurani–Kərimə münasibəti və məhəbbəti həmişə müsbət olmuşdur. Saz-söz sənətkarlarımız isə bu xalq istəyini bizə bədii şəkildə, aşıq şeirinin hansı şəklində yazılmasından asılı olmayaraq, çox böyük məharətlə çatdıra bilmişlər" [4, 35]. Belə sənətkarlardan biri də XVI əsrin sonu, XVII əsrin əvvəllərində yaşayıb-yaratmış Aşıq Abbas Tufarqanlıdır. Ustad Aşığın düzüb-qoşduğu şeirləri dilinin sadəliyi və ifadələrinin xəlqiliyi ilə seçilirdi. Dövrünün bir çox tanınmış aşıqları kimi, Aşıq Abbas da islam dininin insanlar arasında təlqin etdiyi dini-mənəvi dəyərlərə böyük ehtiramla yanaşaraq qoşma və gəraylıları vasitəsilə insalıq üçün vacib olan humanist dəyərləri xalqa çatdırmışdır. O, "Əylənməz" adlı gəraylısında poetik düşüncə və duyğularını aşağıdakı kimi ifadə etmişdir:

*Abbas deyər hac olanda,*
*Kəbəyə merac olanda,*
*Doğru yoldan kəc olanda*
*Namus gedər, ar əylənməz.* [6,76]

Məlumdur ki, islam peyğəmbəri Məhəmməd (ə.s.) Məkkə şəhərində doğulmuşdur. Burada yerləşən Kəbəyə edilən Həcc ziyarəti hər bir müsəlman üçün ən vacib beş əməldən biridir. Odur ki, islam dininə görə, şəriət qanunlarını yerinə yetirməyib kəc (əyri) yola düşənlərin namusu və arı əldən gedər. Nəticədə, əxlaqsız insan ailə və cəmiyyət üçün heç bir fayda verməz.

XVIII əsrin görkəmli sənətkarlarından biri, aşıq poeziyasının klassiki Xəstə Qasımın da çox sayda lirik qoşmaları, qıfılbəndləri, təcnis və divaniləri vardır. Aşıq yaradıcılığında nəsihətamiz şeirlər və ustadnamələr müəllifi kimi məşhurdur. Onun şeirlərində də hikmətli fikirlər, fəlsəfi düşüncələr və irfani görüşlər öz əksini tapmışdır. Bu baxımdan ustad aşığın "Ay hayıf-hayıf" rədifli cığalı təcnisi maraq doğurur.

*Oxudum dərsimi, çıxdım yasinə,*
*İyid olan ixlas bağlar yasına.*
*Aşıq deyər yasına,*
*Namərd boynun yasına,*
*Nanəcibə söz demə,*
*Ya inciyə, ya sına.*
*Qasım ölər, dostlar gələr yasına,*
*Eşidənlər deyər: ay hayıf-hayıf!* [3, 55].

"Yasin" Qurani-Kərimin 36-cı surəsi olub, "Quranın qəlbi" adlanır. Eyni zamanda adı ərəbcə "yə" və "sin" hərflərindən götürülən bu surə Məhəmməd peyğəmbərin (s) ləqəbi hesab olunur. Təfsir kitablarında rəsulallaha xitabən "ey insan" kimi yazılıb şərh edilir. Həmin surə belə başlanır: "Ya sin. And olsun hikmətli Qurana! Sən, şübhəsiz, peyğəmbərlərdənsən. Və doğru yoldasan (bu Quran). O, əziz və rəhim Allahın tərəfindən nazil olmuşdur" [5, 440]. Göründüyü kimi, burada hikmətdən, doğru yoldan söhbət gedir. Şair heç də təsadüfən "Oxudum dərsimi, çıxdım yasinə" – demir. Şəriət qanunlarını dərindən bildiyi üçün açıqlama verir.

İslam dininin bizə bəxş etdiyi müqəddəs şəxsiyyətlərdən biri də İmam Əlidir. Əfsanəvi, qeyri-adi insani keyfiyyətlərə malik olmuş bu şəxs hər zaman olduğu kimi, bu gün də dərin hörmətlə anılmaqdadır. Qeyd edək ki, Azərbaycan aşıq ədəbiyyatında biz İmam Əli (ə) obrazına həm dastan yaradıcılığında, həm də aşıq poeziyasında təsvir və tərənnüm obyekti kimi tez-tez rast gəlirik. O cümlədən Xəstə Qasım da özündən əvvəl yaşamış Miskin Abdal və Qurbani kimi ustad aşıqların yaradıcılıq yolunu davam etdirərək, İmam Əlinin (ə) şəninə şeirlər yazmışdır. Nümunədə oxuyuruq:

*Xəstə Qasım deyər: dəst rast oldum,*
*Şah əlindən badə içib məst oldum.*
*Bir neçə gün Şeyx Səfidə bəst oldum,*
*Onda bəyan oldu dörd kitab mənə* [4, 18].

Aşıq şeirində göstərir ki, yuxusunda həzrət Əlini görməsi, bir neçə gecə Şeyx Səfi məscidində bəstdə oturması ilə ona dörd səmavi kitab bəyan olur. Şeirdən göründüyü kimi, Xəstə Qasımımn ikinci misrada işlətdiyi "Şah əlində badə içib məst oldum" – deyə Həzrət Əliyə işarə edir. Məlum olduğu kimi, aşıq yaradıcılığında İmam Əlinin adını Qəşəmşəm, şahi-Mərdan, heydəri-Kərrar Şahlar şahı, şiri – Yəzdan simvolizə edir.

XVIII əsr aşıqlarından Dəllək Muradın əldə olan bir neçə şeiri onun ustad aşıqlardan biri olduğunu göstərir. Aşıq-şairin "Olmaz" rədifli gəraylısında deyilir:

*Səhər bağın əsər badı,*
*Dostundan istə imdadı,*
*Mövlam yaradıb muradı,*
*Heç kəs Dəllək Murad olmaz*. [1, 148]

Şair öz adından cinas kimi istifadə edir: O "mövlam" sözü ilə irfani məzmunda "ağam", yəni, "Allahım" deyir. Məhz Allah muradı, yəni insanın arzu, xəyal və istəklərini yaradıb onu varlığın əşrəfi mərtəbəsinə qaldırıb.

Ustad sənətkar "Eyləmə" rədifli ustadnaməsində əvvəldən axıra qədər ulu Tanrıya bədii xitabla həmd-dua edərək poetik fikrini belə ifadə edir:

*Qadir Allah, budu səndən diləyim,*
*Sən mərdi namərdə möhtac eyləmə.*
*Qeybi xəzinədən yetir ruzisin,*
*Sən mərdi namərdə möhtac eyləmə.*

*Ədalət kanısan, kərəmin çoxdu,*
*Tənəli söz xəncər, nizədi, oxdu,*
*Qardaşın qardaşa vəfası yoxdu,*
*Qardaşı qardaşa möhtac eyləmə!* [1, 149].

Qoşma-ustadnamənin ideya-bədii məzmunu irfani istiqamətdə olub, Allah-təalanın sifətlərindən birini tərənnüm edir: ruzi verən (Rəzzaq), ədalətli (Adil), səxavətli (Kərim) və s. Şair-aşiq öz həmd-sənasında səmimi poetik yalvarışlarını dərin fəlsəfi ideya ilə aşılayır.

XVIII əsrin görkəmli sənətkarlarından biri olan qarabağlı Aşıq Valeh də ustad aşıqlardan sayılır. Aşıq Valeh haqqında yazan görkəmli folklor araşdırıcılarından Firudin bəy Köçərli, Əhliman Axundov, Mürsəl Həkimov, Mahmud Allahmanlı və digərləri onun yüksək dərəcədə

savadlı, elmli və bilikli olduğunu göstərirlər. Bu baxımdan aşıq-şairin irfani məzmunlu "Dünya" rədifli qoşması maraq doğurur:

*Haqdan fərman gəlib qərar tapanda,*
*Başlamısan cəngə, savaşa, dünya!*
*Qəsdinə girmisən yaranmışların,*
*Cümləsin vermisən talaşa, dünya!*

*Neçə Nəbiləri keçirdin yandan,*
*Nuh tufanı qopdu, doymadın qandan.*
*Zal oğlu Rüstəmi eylədin candan,*
*Bükdün Süleymanı farmaşa, dünya!*

*Valeh ağlar görüb belə divanı,*
*Kimsələrə gəlmir daha gümanı,*
*Kama çatıb şənlik edən zamanı,*
*Döndərdin şənliyi qan-yaşa, dünya!* [1, 129]

Aşıq bu qoşmasında işlətdiyi "haqq", "Nəbi", "Nuh tufanı", "Süleyman", "Zal oğlu Rüstəm" kimi dini-irfani rəmzlərlə dünyanın puçluğunu, həyatın, insanın gəldi-gedər olmasını obrazlı şəkildə açıb göstərir. Qoşmanın sonuncu bəndindəki "divan" əslində "məhşər" anlayışını ifadə edir. Aşığın fikrinə görə, imtahan günü heç də uzaqda deyil, elə ona görə də insan "divan"da cavab verməyə həmişə hazır olmalıdır.

Aşıq Valehin "Mollalar" müxəmməsi riyakar, ikiüzlü, amansız din nümayəndələrinə, ruhanilərə ünvanlanıb. Ustad aşıq bəzi din adamlarının insafdan, irfandan, dindən, Qurandan uzaq olmalarını belə ifadə edir:

*Bir yetimdən mal alanda,*
*İnək adın dana qoyur.*
*Yalan satır müştəriyə,*
*Kürək adın şana qoyur.*
*Qəpik üçün and içərlər,*
*Ayə, Qurana mollalar.* [1, 142]

İslam dininə görə yetimin malını yemək, ən böyük günahlardan biri sayılır. "Qurani-Kərim" yetimi ərsəyə çatdırıb malını qorumağı, ona düşən mirasdan bir çöpə belə haqsız yerə toxunmamağı, yoxsula, miskinə, müsafirə, qəribə, dilənçiyə – ümumiyyətlə, ehtiyacı olan hər bir kimsəyə təmənnasız yardım göstərməyi vacib buyurur. [5, 18].

Odur ki, Aşıq Valeh acgözlük, tamahkarlıq kimi mənfi-əxlaq daşıyıcısı olan bəzi din xadimlərini bu yolla islah etməyi qarşıya məqsəd qoymuşdur.

XIX əsr Azərbaycan aşıq poeziyası tarixində özünəməxsus bir məktəb yaratmış, ustad aşıqlardan biri də Aşıq Ələsgərdir. Onun qeyri-adi və geniş, diapazonlu yaradıcılığının bir qismi də dini-irfani dünyagörüşü ilə sıx bağlıdır. Odur ki, böyük ustadın poetik yaradıcılığında halallıq haqqında tez-tez söz açılır. Aşığa görə, dünyada baş verən mənfi halların əsas səbəbi halallığın gözlənilməməsidir. Əsərlərində qeyd etdiyi kimi, o, halallığı hər şeydən əvvəl nütfə paklığında görür. Aşıq başqa bir qoşmasında haramla halalı müqayisə edərək insanları halallığa çağırır:

*Ələsgər kəsilib səbri aramdan.*
*Oxlayıbsan, qanlar axır yaramdan,*
*Sövdə qıl haqq ilə, əl çək haramdan,*
*Halaldan mətləbin al, qoca baxtım!* [2, 63]

Bununla belə, Qaracaoğlan, Dəllək Murad, Varxiyanlı Aşıq Məhəmməd Yəhya bəy Dilqəm, şair Məmmədhüseyn və digər ustad aşıq və el şairlərinin yaradıcılığında dini-mənəvi dəyərlərə aid

fikirlər çoxdur. Bu şeirlər müasir oxucuların əxlaqi-mənəvi dəyərlərə yiyələnməsində mühüm rol oynayır.

## ƏDƏBİYYAT


1. Azərbaycan aşıqları və el şairləri: 2 cilddə, I cild. Bakı: Elm, 1983, 375 s.
2. Aşıq Ələsgər. Əsərləri / Toplayıb tərtib edəni və ön sözün müəllifi İslam Ələsgər. Bakı: Şərq-Qərb, 2004, 400 s.
3. Xəstə Qasım. 46 şeir / Tərtib edəni və ön sözün müəllifi Sədnik Paşayev. Bakı: Gənclik, 1975, 63 s.
4. Xoşmətov R., Quliyeva Ş. Aşıq yaradıcılığında dini-mənəvi dəyərlər. Sumqayıt: SDU-nun nəşriyyatı, 2006, 75 s.
5. Qurani-Kərim. Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov, V.N.Məmmədəliyev. Bakı, 2005, 604 s.
6. Tufarqanlı A. 72 şeir / Toplayıb tərtib edəni və ön sözün müəllifi Araz Dadaşzadə. Bakı: Gənclik, 1973, 80 s.



## РЕЗЮМЕ
### РЕЛИГИОЗНЫЕ И ДУХОВНЫЕ ЦЕННОСТИ В АШУГСКОЙ ПОЭЗИИ
***Искендеров Б.А.***

***Ключевые слова:*** *тажнис, знания, нравственность, Коран, Ислам, честь.*

С появлением ислама люди стали обладать многими моральными и духовными ценностями. Все, кто был мусульманином, стремились стать совершенными людьми, следуя нравственным законам человеческой цивилизации. Дервиши и озан-ашуги распространяли религиозные и моральные ценности, основанные на исламской морали. Они выражали свои мысли на великих собраниях не только своими стихами, но и эпосами, призывая человечество воздерживаться от злых дел. Неслучайно, что каждое устадname можно рассматривать как код морали.



## SUMMARY
### RELIGIOUS AND SPIRITUAL VALUES IN ASHUG POETRY
***Isgandarov B.A.***

***Key words:*** *tajnis, lore, morality, the Quran, Islam, honour*

With the advent of Islam, people began to possess many moral and spiritual values. All who were Muslim sought to become a perfect human being, following the moral laws of human civilization. The dervishes and Ozan-ashugs spread religious and moral values based on Islamic morality. They expressed their thoughts in great gatherings, not only in their poems, but also in epics, calling on humanity to refrain from evil deeds. It is no accident that every ustadname can be regarded as a code of morality.



| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 21.12.2018 |
| | Son variant | 27.03.2019 |